# BİR ƏYALƏT KƏNDİNİN TARİXİ KEÇMİŞİ

Mədəniyyət evinin kifayət qədər böyük səhnəsində dünya, sovet və Azərbaycan dramaturqlarının müxtəlif əsərləri əyalətdə fəaliyyət göstərən digər mədəniyyət evlərindən fərqli olaraq çox yüksək səviyyədə hazırlanarmış. Güdəcühür kəndinin mərkəzində çiy kərpicdən tikilmiş, üstü qırmızı keramikalı mədəniyyət evi o vaxtlar kəndimizin ümumi görünüşünə xüsusi yaraşıq verirdi. 1930-1940-cı illərdə ərazidə yerləşən istehsalat müəssisələri, burada çoxlu sayda işçi qüvvəsinin çalışması bu yaşayış məntəqəsinin mədəni-iqtisadi səviyyəsinə müsbət təsir göstərirdi. Buradakı pambıqqurutma məntəqəsi, gəmi dayanacağı, böyük su nasosu stansiyası, mədəniyyət evi, kitabxana, aptek, xəstəxana və məktəblər kəndin mədəni inkişafına güclü təkan verirdi. Şübhəsiz ki, saydığım bu mədəni-maarif müəssisələri də həmin zəhmətkeş insanlara xidmət edirdi. Atam Məmmədhəsən Əbilov Salyanda Pedoqoji məktəbi bitirdikdən sonra II Dünya müharibəsinə yola düşmüş müəllimləri əvəz edən ilk məzunlardan olmuşdur. Lakin sonralar gözlərində problemlər əmələ gəldiyindən o, müəllimlik fəaliyyətini mədəniyyət sahəsi ilə əvəz etmişdi. Atamın müəllimlikdən başqa rəssamlıq və tar alətində gözəl ifa etmək qabiliyyəti var idi. Onun tut ağacından düzəldilmiş tarı bu gün də məndədir.

Güdəcühür kənd mədəniyyət evində ilk tamaşa 1937-ci ildə səhnəyə qoyulmuşdur. Bu, böyük dramaturq Mirzə Fətəli Axundovun "Hacı Qara" tamaşası olmuşdur. Tamaşanı II Dünya müharibəsindən geri qayıtmayan müəllim Əli Vəliyev hazırlamışdır. Tamaşa vaxtı ilə kəndin mülkədarı olmuş Hacı Fərzalının Şura hökuməti tərəfindən müsadirə edilib, kolxoz idarə binası kimi istifadə olunan evinin böyük balkonunda nümayiş etdirilmişdir. "Hacı Qara" surətini kənddə gözəl qarmon ustası kimi tanınan Niyaz Vəliyev yaratmışdır. Məhz həmin tamaşa ilə Güdəcühür kəndinin mədəni həyatı başlamışdır. Kəndin mədəni həyatının ikinci dövrü müharibədən sonrakı illərə təsadüf edir. Bu illəri Güdəcühür kəndinin əsl intibah dövrü adlandırsaq yanılmarıq. Kənd ağsaqqalı İsrafil Feyzullayev belə söyləyir ki, biz Səməd Vurğunun "Vaqif" pyesini oynayan zaman Azərbaycanın rayonlarına qastrol səfərləri edən Lütvəli Abdullayev təsadüfən bizim kəndimizə gəlmişdi.



*1930-cu illərin əvvəllərindən 1950-ci illərin axırlarınadək Əli Bayramlının Güdəcühür kəndində fəaliyyət göstərən mədəniyyət evi və onun aparıcı qüvvəsi olmuş kəndin qabaqcıl gəncləri, o dövrdə insanları təmizliyə, ucalığa, vətənpərvərliyə səsləyə bilmişdilər.*

Böyük sənətkarımız bizim göstərdiyimiz tamaşaya axıra qədər baxdı və tamaşanın bütün iştirakçılarını təbrik edərək dedi ki, mən sizin tamaşanıza çox həvəslə baxdım və xoşuma gəldi.

Göründüyü kimi bu sözlər böyük sənət korifeyinin bir əyalət kəndinin mədəni həyatına verdiyi böyük qiymət idi. İsrafil Feyzullayev deyir ki, böyük sənətkar məni Bakıya mərkəzi teatrların birinə dəvət etdi, lakin mən bundan imtina etdim və sonradan peşiman oldum. Həmin illərdə kənd mədəniyyət evi səhnəsində hazırlanmış dram əsərlərinin adlarına diqqət yetirəndə heyrətlənməyə bilmirsən. M.F.Axundovun "Hacı Qara", N.B.Vəzirovun "Yağışdan çıxdıq, yağmura düşdük", Səməd Vurğunun "Vaqif" pyesi, Ə.B.Haqvediyevin, N.Nərimanovun, Süleyman Sani Axundovun və başqa ədiblərin hekayələri əsasında hazırlanmış tamaşalar və tamaşalardan parçalar, yaşlı adamların dediyi kimi çox mükəmməl formada səhnəyə qoyulmuşdur. Bu tamaşaların daimi "sənət fədailəri" isə kəndimizin qabaqcıl gəncləri idilər.

Şair, həkim, jurnalist, Müdafiə Nazirliyinin Mətbuat Xidmətinin rəisi Ramiz Duyğun şerlərinin birində

*Arxasında il boyu cövlan edir*
*Ana Kür,*
*Mənim kəndim Güdəcühür!*

-deyərək o illəri belə xatırlayır: "Həmin illərdə kəndimizin qabaqcıl ziyalılarından olan qardaşım Əhməd Məlikov, Mədə-

niyyət evinin direktoru Məmmədhəsən Əbilov, sonralar hüquq mühafizə orqanlarında şərəfli yol keçmiş mayor İltifat Umudov daha fəal idilər. Şübhəsiz mənim poetik hisslərimin inkişafında qardaşım Əhməd Məlikov və o vaxt kəndimizdə hökm sürən gözəl mədəni ab-hava böyük rol oynamışdır".

Tamaşalar hazırlanan zaman həmin gənclər qapı-qapı gəzərək kənd əhalisindən onlara məxsus ev və məişət əşyalarını toplayaraq tamaşa vaxtı onlardan rekvizit kimi istifadə edirlərmiş. Mərhum nənəm Bilqeyis Əbilova həmin tamaşaların daimi tamaşaçısı kimi belə deyərdi: "Vaqif" pyesi hazırlanan zaman kəndimizdə yaşayan ağbirçək Minəş nənənin xalis gümüşdən olan bel kəmərindən, o biri sakinlərin müxtəlif növ məişət qablarından, kəsici alətlərindən, o cümlədən kişi və qadın geyimlərindən istifadə etmişdilər. Vaqif rolunda Əhməd Məlikov, Şah Qacar rolunda Məmmədhəsən Əbilov, Vidadi rolunda isə İltifat Umudov oynamışdır.

Ramiz Duyğun xatirələrinin birində qeyd etmişdir ki, Məmmədhəsən Əbilov Ağa Məhəmməd Şah Qacar surətini elə təbii yaratmışdır ki, mən sonralar bu tamaşaya baxan zaman, böyük Sidqi Ruhulla sənətinin sehrində olarkən, yadıma kəndimiz və Məmmədhəsən Əbilovun o kiçik əyalət kəndində yaratdığı surət düşürdü. Ümumilikdə tədbirlərin keçirilməsində bu adları çəkilən sənətkarlardan başqa Ağasəmid və Ağaşəfi Allahyarovlar, İsrafil Feyzullayev, Mirzəbala Rəhimov, Əmən Tapdıqov, Qəzənfər Abbasov, Ağasən Quliyev, Niyaz Vəliyev, İsrafil Piriyev, İsmixan İbrahimov, Əli Vəliyev, Ağasən Allahyarov, Balavahid Vahidov və Hüseynbala Bəşirov əsl fədai idilər.

Tamaşaların birində, çar üsuli idarəsi zabitlərinin geyimini hazırlamış Əli Feyzullayev belə söyləyir ki, mundirin paqonlarını kartondan hazırlamışdım, onu anamın, evimizdə xərəyə sərdiyi qırmızı qotazla dairəvi bəzəmişdim. Əli Feyzullayevin qardaşı Faiz Feyzullayev dünyadan nakam köçməsinə baxmayaraq özündən sonra çoxlu şerlər qoyub getmişdir: "Ana Kür", "Var Muğanda", "Çuxanlı qızı" və s. O həmçinin Şirvanın böyük aşığı Aşıq Qurbanxan Sadıqovdan dərs almışdı.

Kəndimizdə musiqini, muğamlarımızı mükəmməl ifa edib oxuyan və onları bir-birindən ayırmağı bacaran adamlar da yaşamışdır. Bu kənddə yaşamış Heybət adlı bir kişi bir gün Əhməd əmigilin küçələrindən keçərkən tarda muğam səsini eşidir, ayaq saxlayaraq bir az qulaq asdıqdan sonra deyir: yaxşı ifa edir, heyif ki, tarın sarı simi yoxdur, ya da o simdən istifadə etmir. Bu, sadə kənd adamının musiqiyə verdiyi yüksək və dəyərli qiymət idi!

Nəhayət, 1950-ci ilin axırlarından etibarən Güdəcühür kəndində yaşayan həmin qabaqcıl gənclər taleyin hökmü ilə öz arzularının arxasınca müxtəlif istiqamətlərə yollandılar. Bəziləri isə dünyalarını dəyişdilər. Dünyasını vaxtsız dəyişən Əhməd Məlikovun məzar daşı üstündə həkk olunmuş:

*Dostum, ucuz tutma dosta hörməti,*
*Arama hər kəsdə sən sədaqəti,*
*Nə qədər vəfasız olsa da canan*
*Unutmaq olmayır ilk məhəbbəti!*

misraları sanki onun uğursuz məhəbbətindən xəbər verir. Əhməd Məlikovun vəfatından az sonra mənim atam da dünyasını dəyişmişdir. Ramiz Duyğunun dililə desək "O vaxtın gəncləri bir şimşək kimi çaxıb getdilər". Beləcə, həmin gənclərdən sonra mədəniyyət evinin fəaliyyəti tamamilə dayandı. Eyni zamanda da mədəniyyət evi yerləşən bina da tədricən dağılmağa başladı. Qonşu Axtaçı-Muğan kəndində sənaye obyektlərinin inşası bir kəndin mədəni inkişafına dağıdıcı zərbə vurdu. Mədəniyyət evi orada uzun müddət klub səviyyəsində olduqca zəif fəaliyyət göstərdi. 1993-cü ildən sonra isə Güdəcühür kəndində mədəniyyət evinin fəaliyyəti yenidən bərpa olundu. Burada həyata keçirilən mədəni-kütləvi tədbirlər günün tələblərinə cavab verməyə başladı. Sonralar Güdəcühür kənd mədəniyyət evində "Qoratdı" instrumental ansamblı yaratdıq. Onu da deyim ki, "Qoratdı" Güdəcühür kəndinin qədim adıdır. Qoratdı toponimi haqqında başqa yazıda şərh verməyə çalışacağam. Bu gün kənd mədəniyyət evi rayonumuzun bütün tədbirlərində iştirak edir. Mədəniyyət evi özünün fərdi iş üsulu ilə seçilir, təsadüfi deyil ki, kollektiv ilin yekunlarına görə 2005-ci ilin qalibi elan edilmişdir.

Yeri gəlmişkən qeyd edim ki, mədəniyyətə, incəsənətə hörmət edən bir şəxs kimi tanıdığımız, 64 saylı Sabirabad ikinci seçki dairəsinin sədri Şükür İmanova, mədəniyyət evi ilə sağlam dostluq münasibəti qurduğu üçün və tədbirlərdə mütəmadi iştirak etdiyinə görə öz təşəkkürümüzü bildiririk.

**Mahir ƏBİLOV,**
**Güdəcühür kənd mədəniyyət evinin direktoru**
Sabirabad rayonu